**Qanunsuz heyvan kəsimi fəaliyyətinin qarşısının alınması istiqamətində görülən tədbirlərə dair məlumat**

**(yanvar-iyul 2026)**

Cari il ərzində AQTA tərəfindən Daxili İşlər Nazirliyinin və rayon icra hakimiyyətlərinin əməkdaşları ilə birgə Bakı şəhərində keçirilən reydlər zamanı ümumilikdə 250 ət satışı mağazasında nəzarət tədbiri aparılıb.

Yoxlamalar zamanı 174 mağazada sanitar-gigiyenik norma və qaydalara əməl olunmadığı, qanunsuz heyvan kəsiminin həyata keçirildiyi, eləcə də baytarlıq sənədləri olmayan ətlərin satışı müəyyən olunub.

Aşkar edilmiş nöqsanlarla bağlı mağaza sahibləri barəsində inzibati protokollar tərtib edilib. Həmçinin 47 mağazada heyvan kəsimi üçün nəzərdə tutulmuş qanunsuz qurğular sökülüb.